# Mündəricat


01 Avropa ali təhsil interoperabellik çərçivəsi

02 Finlandiyada peşə təhsili və yaşıl keçid

03 Azərbaycanda müəllimlərin idarəetmə sistemi

# Avropa ali təhsil interoperabellik çərçivəsi

01

Avropa İttifaqının təşəbbüsü ilə Avropa Rəqəmsal Təhsil Mərkəzi (EDEH) çərçivəsində Avropa Komissiyası tərəfindən 'Avropa ali təhsil interoperabellik çərçivəsi' sənədi hazırlanmışdır. Sənədin əsas məqsədi ali təhsil sistemində rəqəmsal proseslərin standartlaşdırılması, tələbə və müəllim mobilliyinin asanlaşdırılması və Avropa universitetləri arasında ortaq virtual kampusların yaradılmasını dəstəkləməkdir. Çərçivə sənədi yalnız texniki sxemlərin hazırlanması ilə məhdudlaşmır, əsas məqsəd ali təhsil müəssisələrinin rəqəmsal imkanlarını genişləndirmək, təhsilin keyfiyyətini artırmaq, tədrisdə çevikliyi və şəffaflığı təmin etməkdir. Bu baxımdan çərçivə sənədi strateji və praktiki tətbiqlər üçün resurslar, idarəetmə modeli, məlumat standartları təqdim etməklə yanaşı, Avropa universitetləri arasında ortaq layihələrin və birgə proqramların inkişafını dəstəkləyir, akademik mobilliyi isə qlobal səviyyədə stimullaşdırır. Məqsədlərin uğurla həyata keçirilməsi üçün tələbə mərkəzli yanaşmanın gücləndirilməsi xüsusi önəm daşıyır. Bu istiqamətdə tələbələrə fərdiləşdirilmiş imkanların yaradılması, təhsil sahəsində əlçatanlığın artırılması, şəffaflığın təmin olunması və rəqəmsal dəstəyin möhkəmləndirilməsi vacib şərt kimi hesabatda qeyd olunur.

Sənəd Avropa rəqəmsal təhsil strategiyalarına uyğun olaraq geniş bir spektri əhatə edir. Burada prioritet məqsəd universitetlər arasında məlumat mübadiləsini asanlaşdırmaq və tələbə mobilliyini dəstəkləməkdir. Bu kontekstdə sənəd bir neçə əsas istiqaməti önə çıxarır:
1) Referans arxitektura və interoperabellik modeli: Ali təhsil müəssisələrinin rəqəmsal transformasiyasını təmin edən semantik, təşkilati və texniki uyğunluq modelləri təqdim olunur. Avropa rəqəmsal təhsil siyasəti ilə uzlaşaraq ali təhsil sisteminin rəqəmsal transformasiyasını dayanıqlı əsasda həyata keçirməyi hədəfləyir.
2) İstifadə halları və texniki çərçivə:
Sənəddə 8 əsas istifadə halı üzrə aşağıdakı funksional imkanlar müəyyən edilib:
1. Kəşf et (Discover)
2. Müraciət et və tanınma al (Apply & Get Recognition)
3. Alətlərə çıxış (Access Tools)
4. Tədris resurslarını idarə et (Manage Educational Resources)
5. Məlumat yarat (Generate Data)
6. Rəqəmsal səriştə və ya sənəd qazan (Earn a Credential)
7. İstifadəçi identikliyi (User Identity)
8. İnstitusional identiklik

Bu funksiyalar üçün müvafiq arxitektura işlənib hazırlanmışdır.
"ArchiMate" və "EİRA" çərçivələri əsasında semantik, təşkilati və texniki modellərin tətbiqi, vahid məlumat standartlarının istifadəsi və ontoloji yanaşmanın əhəmiyyəti vurğulanır.
3) Mobillik və şəbəkələşmə: Tələbə mobilliyini dəstəkləyən rəqəmsal həllərin hazırlanması, Avropa Universitet İtiffaqları üçün birgə sistemlərin qurulması, həmçinin virtual inter-universitet kampuslarının təşkili nəzərdə tutulur. Bu yanaşma həm avropa daxilində, həm də qlobal səviyyədə tələbə və müəllim hərəkətliliyini stimullaşdırır.
4) Tədris və öyrənmə imkanlarının kəşfi: Tədris proqramlarının metadatalarla standartlaşdırılması, Avropa Tədris Modeli (ELM) ilə uyğunluğun təmin edilməsi və öyrənmə resurlarının vahid platformada əlçatan olması vacibdir. Bu tələbələrin fərdiləşdirilmiş öyrənmə trayektoriyalarına çıxışını asanlaşdırır.
5) Rəqəmsal resurslara çıxış:Tədris üçün alətlərin paylaşılması, mərkəzləşdirilmiş kataloqların yaradılması, açıq təhsil resurslarının (OER) istifadəsinin genişləndirilməsi tələbələrin və müəllimlərin resuslardan bərabər faydalanmasına şərait yaradır.
6) Rəqəmsal kimlik və təhlükəsizlik: İstifadəçi kimliyinin (user identity) və ali təhsil müəssisələrinin identifikasiyasının (institutional identity) idarə edilməsi, məxfiliyin qorunması, "eduGain" Avropa Tələbə Kartı və təhlükəsizlik protokollarının tətbiqi tədris prosesində şəffaflıq və etibarlığın təmin olunmasına xidmət edir.



7) Texnologiya və İnnovasiya: Süni intellekt (Aİ), rəqəmsal diplom, sertifikatların verilməsi, elektron identifikasiya və yeni texniki həllər ali təhsildə interoperabellik və rəqəmsal transformasiyanı gücləndirən əsas vasitələr kimi təqdim olunur.

Sənəddən aydın olur ki, Avropa ali təhsil sistemində rəqəmsal transformasiyanın uğurla həyata keçirilməsi yalnız texniki həllərin tətbiqi ilə deyil, həm də strateji idarəetmə yanaşmaları, institusional əməkdaşlıq və tələbə mərkəzli yanaşmanın gücləndirilməsi ilə mümkündür. Bununla yanaşı, müxtəlif universitetlər və ali təhsil ittifaqları arasında rəqəmsal uyğunluğun təmin olunması, informasiya axınının asanlaşdırılması və şəffaflığın artırılması üçün konkret istiqamətlərdə koordinasiyalı tədbirlərin görülməsi zəruridir. Bu kontekstdə hesabatda təqdim olunan tövsiyələr, həm Avropa İttifaqı səviyyəsində, həm də milli ali təhsil sistemləri çərçivəsində qarşıya qoyulan məqsədlərin reallaşdırılması üçün praktik yol xəritəsi kimi çıxış edə bilər.

1) Vahid Avropa məlumat standartlarının tətbiqi - ali təhsil müəssisələri arasında rəqəmsal uyğunluğun təmin edilməsi, məlumat mübadiləsinin asanlaşdırılması və tələbə mobilliyinin artırılması.

2) Terminlərin vahid formada istifadəsi - məlumatların düzgün anlaşılmasını və resursların səmərəli paylaşımının təmin edilməsi.

3) Federativ identiklik modellərinin miqyaslandırılması – “eduGAİN” və oxşar sistemlər vasitəsilə vahid identifikasiya və autentifikasiyanın təmin edilməsi.

4) Rəqəmsal cüzdanların tətbiqi - tələbə və müəllim kredensiallarının təhlükəsiz və portativ idarə olunması.

5) Açıq təhsil resurslarının (OER) istifadəsinin genişləndirilməsi - tədris materiallarının əlçatanlığının artırılması.

6) Avropa miqyasında akkreditasiya məlumatlarının vahid platformada əlçatan olması - ali təhsil müəssisələrində şəffaflıq və etibarlığın gücləndirilməsi.

*Mənbə: European Commission: Directorate-General for Education, Youth, Sport and Culture, Deloitte, EDEN, German Academic Exchange Service, Knowledge Innovation Centre (KIC), Stifterverband and SURF, European higher education interoperability framework, Publications Office of the European Union, 2025, https://data.europa.eu/doi/10.2766/5588498*

Beynəlxalq Təhsil İcmalı
Avqust 2025

# Finlandiyada peşə təhsili və yaşıl keçid

02

OECD tərəfindən “Finlandiyada peşə təhsili və yaşıl keçid” adlı hesabat hazırlanmışdır. Hesabatın əsas məqsədi Finlandiyanın peşə təhsili (VET) sisteminin ətraf mühitin mühafizəsi və iqlim dəyişikliklərini nəzərə alaraq karbon emissiyasının azaldılmasına yönəlmiş fəaliyyətlərə necə töhfə verə bildiyini araşdırmaqdır.

Finlandiya dünyada ən iddialı iqlim hədəflərindən birinə malikdir. Ölkə 2035-ci ilə qədər karbon neytral olmağı qanunla öhdəsinə götürüb ki, bu da Avropa İttifaqının 2050-ci il hədəfindən daha tez müddəti əhatə edir. Hesabatda bildirilir ki, Finlandiyada iqlim siyasəti bərpa olunan enerji, enerji səmərəliliyi, davamlı torpaq istifadəsi və iqlim adaptasiyası üzərində qurulub. Bu proses işçi qüvvəsinin həm yeni bacarıqlara sahib olmasını həm də yeni ixtisasların qazanılmasını tələb edir. Finlandiyada peşə təhsili sistemi məhz bu keçidin mərkəzindədir. Buna səbəb Finlandiyanın təkcə gənclərə ilkin peşə təhsili verməsi deyil, eyni zamanda orta yaşlılara də çevik şəkildə əlavə bilik və bacarıqlar qazanmaq imkanı yaratmasındadır. Bildirilir ki, hazırda Finlandiyada orta məktəbi bitirənlərin təxminən 45%-i peşə təhsili proqramlarına yazılır ki, bu da OECD üzrə 38 %-lik orta göstəricidən yüksəkdir. Bundan əlavə böyüklərin peşə təhsili proqramlarına cəlb olunma səviyyəsi də digər ölkələrdən üstündür.

Hesabatda Finlandiyada yaşıl keçidin iqtisadi göstəricilərinin diqqətəlayiq olduğu qeyd olunur. Belə ki, 2023-cü ildə bioiqtisadiyyat Finlandiyada 29,3 milyard avro əlavə dəyər yaradıb. Bu da ölkə ÜDM-nin 12%-ni təşkil edib. Bu sahədə isə 300 min nəfər, yəni ümumi işçi qüvvəsinin 11%-i çalışır. Hökumət 2035-ci ilə qədər bioiqtisadiyyatın payını ikiqat artıraraq ÜDM-də 26%-ə çatdırmağı hədəfləyir. Enerji sektorunda da mühüm dəyişikliklər baş verdiyi hesabatdan aydın olur. Qeyd olunur ki, 2021-ci ildə ölkənin enerji təchizatının yalnız 36%-i fosil yanacaqlardan ibarət idi, halbuki Beynəlxalq Enerji Agentliyi üzvləri üzrə bu göstərici 70%-dir. 2000-ci ildən etibarən enerji ilə bağlı $CO_2$ emissiyaları 38% azalıb. Bununla yanaşı, külək enerjisi, nüvə enerjisi, hidrogen istehsalı və davamlı tikinti kimi sahələrdə yeni ixtisaslı kadrlara böyük ehtiyac yaranıb.

Peşə təhsili sistemi Finlandiyada yüksək çeviklik və modulluq ilə seçilir. Hər bir ixtisas bir neçə vahiddən ibarətdir və tələbələr fərdi inkişaf planı əsasında öz bilik və bacarıqlarını nəzərə alaraq uyğun modulları tamamlayırlar. Bu sistem sürətlə dəyişən bacarıq tələblərinə çevik cavab vermək imkanı yaradır. Son illərdə Finlandiya mikro-ixtisaslar da tətbiq olunmağa başlanıb. Bu ixtisaslar qısa müddətli, hədəfli təlimlərdir ki, konkret iş tapşırıqlarına hazırlaşmaq üçün nəzərdə tutulmuşdur. İşçilərə qısa zamanda yeni texnologiya və ya qaydalarla işləmək imkanı verdiyindən mikro-ixtisaslar Finlandiyada xüsusilə yaşıl keçidin gətirdiyi yeni tələblərə operativ cavab vermək üçün faydalı hesab olunur. Lakin bu sahədə də tanınma və idarəetmə problemləri hələdə aktuallığını qoruyur.

Hesabatda Finlandiyada peşə təhsili məzunlarının yaşıl keçiddə əhəmiyyətli rol oynadığı aydın olur. Belə ki, OECD ölkələrində peşə təhsili məzunlarının təxminən 20% yaşıl işlərdə çalışır. Finlandiyada isə bu göstərici daha yüksəkdir. Peşə təhsili məzunlarının 25%-i birbaşa yaşıl işlərdə, əlavə olaraq 11% isə oxşar bacarıqlar tələb edən sahələrdə çalışır. Digər tərəfdən 8%-i yüksək emissiyalı işlərdə çalışır ki, bu da onların yaşıl keçid zamanı daha çox risk altında olduğu deməkdir. Ən çox yaşıl iş imkanları təqdim edən sahələr isə mühəndislik, istehsalat, tikinti, kənd təsərrüfatı və təbiət elmləridir. Bu bir tərəfdən böyük imkanlar açır, digər tərəfdən isə həmin sahələrdə işləyənlərin davamlı iş tapmaları üçün bacarıqlarının yenilənməsinin vacibliyini göstərir. Hesabatda Finlandiyada yaşıl keçidlə bağlı bir sıra problemlərin mövcudluğu vurğulanır:

1. Bütün ixtisas proqramlarında yaşıl bacarıqların sistemli şəkildə inteqrasiyası hələ tam təmin olunmayıb.
2. Mikro-ixtisaslar işəgötürənlər və tələbələr arasında kifayət qədər tanınmır, bu da onların potensialından tam istifadəni əngəlləyir.
3. Müəllimlərin davamlılıq və yaşıl texnologiyalar üzrə hazırlığı bərabər səviyyədə deyil, çünki pedaqoji proqramlarda bu mövzular könüllü xarakter daşıyır.
4. STEM sahələrində yüksək səviyyəli texniki bilik tələb edən ixtisaslı kadr çatışmazlığı mövcuddur.
5. Regionlararası fərqlər var: böyük şəhərlərdə yaşıl bacarıqlara çıxış imkanları daha genişdir, kənd ərazilərində isə məhduddur.



Beynəlxalq Təhsil İcmalı
Avqust 2025

Qeyd olunan çətinliklərin həll edilməsi məqsədilə hesabatda 4 əsas istiqamətdə siyasət tövsiyələri təqdim edilir.

1) Peşə təhsili ixtisaslarının inkişaf etdirilməsi. Burada vahidlərin 3 səviyyədə təsnif edilməsi təklif olunur: əsas bacarıqlar (məsələn, riyaziyyat, ana dil), geniş peşə bacarıqları və xüsusi peşə bacarıqları. Xüsusi bacarıqların davamlı yenilənməsi əsas prioritetlərdəndir. Eyni zamanda ixtisasların məzmunu Avropa “ESCO” yaşıl bacarıq təsnifatına uyğunlaşdırılmalı, süni intellekt və “ big data” analitikası vasitəsilə yeni bacarıq tələbləri daha tez müəyyənləşdirilməlidir.

2) Orta ixtisasdan sonrakı peşə təhsilinin gücləndirilməsi. Finlandiyada ixtisaslaşmış Peşə Kvalifikasiyaları (Specialist Vocational Qualifications) proqramlarının təxminən 40%-i biznes idarəçiliyinə yönəlib. Hesabat STEM sahələrinin payını artırmağı tövsiyə edir, çünki yaşıl keçid daha çox texniki və mühəndislik bacarıqları tələb edir. Hazırda SVQ iştirakçılarının 97%-i 25 yaşdan yuxarıdır. Gənclərin də bu proqramlara cəlb olunması üçün onların dizaynı dəyişdirilməli, universitetlərdə (UAS) daha çox tanınmalıdır. Bundan əlavə gənclər üçün riyaziyyat və savad kimi əsas bacarıqların yenidən tədrisi vacibdir.

3) Karyera məsləhət xidmətinin gücləndirilməsi. Finlandiyada mövcud “StudyInfo” platformasına yaşıl işlər və aparan təlim yolları barədə ayrıca məlumat əlavə edilməlidir. Xüsusilə aşağı orta məktəb şagirdlərinə, qızlara və akademik yönümlü şagirdlərə yaşıl karyera imkanları barədə erkən mərhələdə məlumat verilməlidir. Karyera məsləhəti yalnız yerli bazara yox, həm də milli və regional əmək bazarına əsaslanmalıdır. Böyüklərin yaşıl keçid üçün hansı çarpaz bacarıqlara malik olduqları müəyyənləşdirilməli və fərqli təlim yolları təklif olunmalıdır.

4) Peşə təhsilində müəllimlərin rolu artırılmalı. Sənaye mütəxəssislərinin müəllimliyə cəlb olunması, alternativ sertifikatlaşdırma yollarının yaradılması və modul əsaslı pedaqoji proqramların genişləndirilməsi tövsiyə olunur. Finlandiyada peşə təhsili müəllimlərinin 60%-i 50 yaşdan yuxarıdır, bu da gələcəkdə müəllim çatışmazlığı riskini artırır. Ona görə də həm yeni müəllimlərin cəlb olunması, həm də mövcud müəllimlərin davamlı peşəkar inkişaf kursları vasitəsilə yaşıl texnologiyalar və davamlı pedaqogika üzrə biliklərinin artırılması vacibdir.

*Mənbə: OECD (2025), Vocational Education and Training and the Green Transition in Finland, OECD Reviews of Vocational Education and Training, OECD Publishing, Paris, https://doi.org/10.1787/4d29a34a-en..*

# Azərbaycanda müəllimlərin idarəetmə sistemi

03

Avropa təlim fondu tərəfindən “Azərbaycanda müəllimlərin idarəetmə sistemi” adlı hesabat hazırlanmışdır. Hesabat “Şərq Tərəfdaşlığında Təhsil İslahatları və Bacarıqların Dəstəklənməsi Proqramı” çərçivəsində tərtib edilib. Bundan əlavə hesabat azərbaycanlı təhsil mütəxəssislərinin iştirakı və təhsil siyasətini formalaşdıran müvafiq dövlət qurumları ilə aparılmış məsləhətləşmələr əsasında hazırlanmışdır.
Hesabatın əsas  məqsədi Azərbaycanda müəllim idarəetmə sistemini hərtərəfli təhlil etmək, mövcud vəziyyəti qiymətləndirmək, problemləri, çətinlikləri üzə çıxararaq bu sahədə həyata keçirilən və planlaşdırılan islahatları təqdim etməkdir.
Hesabat 3 əsas hissədən ibarətdir və müəllim idarəetmə sisteminin müxtəlif istiqamətlərini özündə ehtiva edir.
1) Faktlar toplusu (Factsheet) - bölməsində müəllimlərin idarə olunmasına dair hüquqi-normativ baza, işə qəbul və fəaliyyət mexanizmləri, maliyyələşmə prinsipləri və idarəetmə strukturu təsvir olunur. Hesabatda müəllim peşəsinə qəbul üçün minimum ali pedaqoji ixtisas tələb olunduğu öz əksini tapır. Bundan əlavə müəllimlərin işə qəbulu prosesi MİQ (müəllimlərin işə qəbulu) mərkəzləşdirilmiş imtahan sistemi əsasında həyata keçirilir. İmtahan test və müsahibə olmaqla iki mərhələdən ibarətdir. Nəticələrə görə namizədlər vakant yerlərə yönləndirilirlər. Bu sistem şəffaflığı artırmaqla yanaşı, müəllimlərin bilik və bacarıq səviyyəsini obyektiv qiymətləndirməyə xidmət edir. Həmçinin müəllimlərin peşəkar inkişafı üçün dövlət tərəfindən təşkil olunan ixtisasartırma kursları, pedaqoji fəaliyyətin keyfiyyətinə nəzarət məqsədilə sertifikasiya və diaqnostik qiymətləndirmə mexanizmlərinin mövcudluğu da vurğulanır. Hesabatda bundan əlavə, əməkhaqqı sisteminin mərhələli olaraq təkmilləşdirildiyi, xüsusilə də nəticəyə əsaslanan diferensial əmək haqqı siyasəti tətbiq olunduğu qeyd olunur. Müəllimlərin məktəblərə yerləşdirilməsi xüsusi prosedurlarla tənzimlənir. Kadr çatışmazlığını aradan qaldırmaq üçün əsasən gənc müəllimlərin ucqar və kənd yerlərinə yönləndirilməsi siyasəti həyata keçirilir. Bu müəllimlərə həm maddi güzəştlər (maaş əlavələri, yol xərci kompensasiyası və s.), həm də karyera baxımından üstünlüklər təqdim olunur. Dövlət bu siyasətlə ucqar bölgələrdə müəllim çatışmazlığını aradan qaldırmağa və təhsildə bərabərliyi təmin etməyə çalışır. Eyni zamanda müəllimlərin idarə olunmasının dövlət qurumları, regional strukturlar və təhsil müəssisələri səviyyəsində təşkil olunduğunu ümumiləşdirir. Ümumilikdə işə qəbul və hazırlıq mərhələsi göstərir ki, Azərbaycan müəllim idarəetmə sistemində standartlaşdırılmış, şəffaf və rəqabətə əsaslanan mexanizm formalaşdırılıb. Bununla belə pedaqoji kadrların keyfiyyətinin yüksəldilməsi, təhsil proqramlarının müasir tələblərə uyğunlaşdırılması və gənc müəllimlərin bölgələrdə işləməyə daha çox cəlb edilməsi hələ də prioritet olaraq qalmaqdadır.

2) Analitik hissəsində müəllimlərin idarəetmə sistemində mövcud problemlər və islahat tədbirləri ətraflı şəkildə təhlil edilir. Burada əsas problemlər kimi müəllim peşəsinin nüfuzunun azalması, ixtisaslı kadr çatışmazlığı vuğulanır. Hesabatda bildirilir ki, ölkədə məktəbəqədər təhsilin əhatə dairəsi aşağıdır. UNICEF-in (2023) məlumatına görə məktəbəqədər yaşda olan uşaqların yalnız 32%-i bağçaya gedir. Əsas problemlərdən biri isə yeni məzun müəllimlərin işə cəlb olunmasıdır. Problemin həlli üçün 2023-cü ildə yeni işə qəbul qaydaları təsdiqlənib. 2024-cü ildə müəllimlərin bilik və bacarıqlarının qiymətləndirilməsi aparılaraq onların təlim ehtiyacları müəyyənləşdirilmişdir. Hesabatda qeyd olunur ki, ümumi təhsildə müəllim peşəsi uzun müddət nüfuzunu itirsə də, diaqnostik imtahanlar, maaş artımları və 2022-ci ildən başlayan sertifikatlaşdırma prosesi vəziyyəti yaxşılaşdırır. Belə ki, 2014-2018-ci illərdə müəllimlərin bilik və bacarıqlarını ölçmək üçün diaqnostik imtahanlar keçirilmiş və nəticələrə uyğun olaraq maaşlar orta hesabla 2 dəfə artırılmışdır. 2010 və 2014-cü illərdə dövlət gənc müəllimləri uzaq bölgələrdə işləməyə həvəsləndirmək üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlər tətbiq etməyə başlamışdır. 2022-ci ildən etibarən təhsilin keyfiyyətinin stimullaşdırılması məqsədilə sertifikatlaşdırma prosesinə başlanıldı. Bu proses müəllimlərin peşəkarlıq səviyyəsini və peşəyə yararlılığını yoxlamaq məqsədi daşıyır. Diaqnostik qiymətləndirmə və sertifikatlaşdırma tədbirləri zəif müəllimlərin sistemdən ayrılmasına və ya öz bacarıqlarını artırmasına səbəb oldu. Maaş artımı isə müəllimlik peşəsinin nüfuzunun bərpasına və yüksək nəticə göstərən gənclərin bu sahəyə marağının artmasına kömək etdi.



Müəllimlərlə yanaşı 2015-ci ildə Elm və Təhsil Nazirliyi məktəb direktorlarının mərkəzləşdirilmiş qaydada işə qəbulunu da tətbiq etdi, bu da məktəb idarəçiliyinin keyfiyyətini yüksəltməyə yönəlmiş siyasətdir. Nazirlik müəllimlərin peşəkar inkişafına da xüsusi diqqət ayırır, hər il çoxsaylı layihə və təlim proqramları həyata keçirilir. Peşə təhsili üzrə müəllimlərin müasir pedaqoji və praktiki biliklərinin zəifliyi, sistemli təlim imkanlarının azlığı və aşağı maaşlar təhsilin keyfiyyətinə mənfi təsir göstərir. Problemlərin aradan qaldırılması məqsədilə 2016-cı ildə Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılıb, 2016-2019-da optimallaşdırma aparılıb, yeni peşə təhsili mərkəzləri yaradılıb və kurikulum bazara uyğunlaşdırılıb. 2023-cü ildən etibarən diaqnostik qiymətləndirmə və diferensial maaş sistemi müəllimlik peşəsinə marağı daha da artırıb.

Orta ixtisas təhsilində isə 2018-ci ildən islahatlar aparılmaqdadır. Belə ki, kolleclərin ali təhsil müəsisələrinə birləşdirilməsi və məzunların imtahansız qəbul imkanları bu sahəyə marağı artırıb. Kreditlərin tanınması da ali təhsilə keçidi asanlaşdırıb. Lakin müəllim peşəsinə maraq az olaraq qalır, ona görə də strateji islahatlar kolleclərin yenidən qurulmasına yönəlib.

Hesabatda həmçinin Ali təhsil pilləsi üzrə də məlumatlar yer almaqdadır. Bildirilir ki, Azərbaycanda ali məktəblərdə müəllim idarəçiliyi bir sıra çətinliklərlə üzləşib. Əsas problemlər aşağı maaşlar, məhdud karyera və peşəkar inkişaf imkanları, zəif qiymətləndirmə və tədris resurslarının çatışmazlığı, habelə motivasiya və stimulların azlığıdır. Bu səbəbdən yüksək ixtisaslı kadrların müəllimliyə marağı aşağı olmuşdur. Lakin 2015-ci ildən Avropa keyfiyyət təminatı modelinin tətbiqi yeni təşəbbüslərə yol açıb. 2017-ci ildən bəri bəzi universitetlərdə differensial maaş sistemi tətbiq olunur. 2019-2023/2022-2028 Dövlət Proqramı gənclərə nüfuzlu xarici universitetlərdə təhsil almaq imkanı yaradıb. Eyni zamanda yeni dövlət proqramı elmin və ali təhsilin beynəlxalq rəqabət qabiliyyətini artırmağa yönəlib. Bundan əlavə hesabatda Universitetlərin "SCOPUS" və "Clarivate" ilə əməkdaşlıq edərək tədqiqat imkanlarını genişləndirdiyi, müəllimlərin innovativ tədris metodlarına və elmi araşdırmalara həvəsləndirilməsi istiqamətində yeniliklər tətbiq olunduğu qeyd olunur. Bu tədbirlər müəllimlərin peşəkarlığını artırmaq və tədris keyfiyyətini yüksəltmək məqsədi daşıyır.
3) Əsas statistik məlumatlar bölməsində isə müəllimlər barədə əsas statistik məlumatlar ümumiləşdirilmişdir. Bu məlumatlar müəllimlərin sayı, onların yaş strukturu, cins bölgüsü, şəhər və kənd yerləri üzrə paylanması, şagird/müəllim nisbəti, orta əməkhaqqı göstəriciləri və iş yükünü əhatə edir. Məktəbəqədər təhsil üzrə 17 min müəllim fəaliyyət göstərməkdədir, onların 99,7%-i qadındır. İxtisaslı pedaqoqlar yalnız 60% təşkil edir. Ümumi təhsil üzrə təxminən 140 min müəllim fəaliyyət göstərir, onların 84,8%-i qadındır. Müəllimlərin orta yaş həddi isə 45-dir. Ümumi təhsil üzrə şəhər və kənd yerlərində qeyri-bərabərlik mövcuddur.
Peşə təhsili üzrə təxminən 7,8 min müəllim fəaliyyət göstərir, onların yalnız 39%-i qadınlardır. Burada orta yaş nisbətən yüksəkdir və müəllimlərin əksəriyyəti texniki ixtisaslıdır. Kolleclərdə fəaliyyət göstərən müəllim heyətinin dəqiq statistikası məhdud olsa da orta ixtisas müəssisələrində əsasən qadın müəllimlərin üstünlük təşkil etdiyi hesabatda qeyd olunur.
Ali təhsil pilləsi üzrə isə professor-müəllim heyətinin 61,1%-i qadındır, orta yaş həddi isə 51-dir. Bu da gənc kadrların sistemə cəlb olunmasında problemlərin mövcudluğunu göstərir. Elmi dərəcəsi olan kadrların sayı isə məhduddur.
Hesabatda qeyd olunur ki, Azərbaycanda müəllimlərin idarə olunması sistemi son onillikdə geniş islahat mərhələsinə qədəm qoyub və bu prosesin əsas istiqamətlərini sertifikasiya mexanizminin tətbiqi; diaqnostik qiymətləndirmələrin aparılması; əməkhaqların artırılması; gənclərin müəllim peşəsinə cəlb edilməsi və beynəlxalq təcrübələrin inteqrasiyası təşkil edir. İslahatların müsbət nəticəsi olaraq müəllimlərin maaş səviyyəsi və peşə nüfuzu yüksəlməkdədir, sertifikasiya və diaqnostik imtahanların tətbiqi nəticəsində müəllimlərin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi, bilik və bacarıqlarının obyektiv ölçülməsi prosesi başlayıb, həmçinin beynəlxalq layihələr və dövlət proqramları hesabına pedaqoji heyətin inkişafı üçün yeni imkanlar yaradılmaqdadır.



Bununla yanaşı, müəyyən davamlı problemlər də mövcuddur: xüsusilə kolleclərdə və peşə təhsili müəssisələrində müəllimlik ali təhsil müəssisələrində müəllimlərin motivasiya sisteminin zəif olması; kənd yerlərində kadr çatışmazlığı və məktəbəqədər təhsil sahəsində ixtisaslı müəllimlərin sayının azlığı hələ də ciddi problem olaraq qalır.

Nəticə etibarilə, Azərbaycan müəllim idarəetmə sistemində mühüm irəliləyişlər əldə edilməsi məqsədilə hesabatda aşağıdakı tövsiyyələr yer almaqdadır.

1. Müəllim peşəsinə marağı artırmaq - əmək haqqlarının artırılması, diferansiallaşdırma mexanizmlərinin təkmilləşdirilməsi, müəllimlər üçün imtiyazlı ipoteka və sosial paketlərin nəzərdə tutulması;
2. Müəllimlərin peşəkar inkişafının gücləndirilməsi - müasir pedaqoji metodikalar və texnologiyaların tətbiqi üçün təlimlər, onlayn təhsil platformaları, təlimlərin fərdiləşdirilmiş ehtiyaclara uyğunlaşdırılması,mentorluq proqramlarının tətbiqi;
4. Beynəlxalq təcrübəyə əsaslanan təkliflər - OECD modellərinə uyğun müəllim peşəkarlıq çərçivəsinin hazırlanmalı və beynəlxalq akkredasiya mexanizmləri ilə uyğun təlim proqramları yaradılmalıdır.

*Mənbə: European Training Foundation (2025), The teacher management system in Azerbaijan - Insights and strategies, Turin, Italy. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://www.etf.europa.eu/sites/default/files/2025-08/Azerbaijan_Teacher%20Management%20System.pdf*

Beynəlxalq Təhsil İcmalı
Avqust 2025